# AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ DÖVLƏT EKOLOJİ EKSPERTİZA AGENTLİYİ

AZ1154 Bakı şəhəri, Heydər Əliyev prospekti 10.
E-poçt: info.deea@eco.gov.az

Tel: +99412 567 08 28
Faks: +99412 567 08 28


"BAKI TULLANTILARIN EMALI"
MMC-nin direktoru
cənab Rəşad Quzanova

Surəti: Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinə

11 saylı Regional Ekologiya və
Təbii Sərvətlər İdarəsinə

*2025-ci il 15 may tarixli,*
*1 nömrəliyə*

"BAKI TULLANTILARIN EMALI" MMC tərəfindən məişət, təhlükəsiz sənaye, maye və təhlükəli tullantıların daşınması fəaliyyətinə dair ekoloji ekspertiza rəyi Sizə göndərilir.

Qoşma: rəy - 2 vərəq

İdarə Heyətinin sədri Mirsalam Qənbərov

Azərbaycan Respublikasının
Ekologiya və Təbii Sərvətlər
Nazirliyi
Dövlət Ekoloji Ekspertiza Agentliyi
Elektron sənədin surəti

**İmzalayan şəxs: Mirsalam Qənbərov Böyükağa/ Sədr**
Qeydiyyat №-si :**ER-22/1063** Qeydiyyat tarixi: **19.06.2026**

Qeyd: "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Təhlükəsizlik kodu: 96D1B9

**AZƏRBAYCAN RESPUBLİKASININ**

**EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ**

**DÖVLƏT EKOLOJİ EKSPERTİZA AGENTLİYİ**

# EKOLOJİ EKSPERTİZA RƏYİ

"BAKI TULLANTILARIN EMALI" MMC 02 iyul 2022 – ci il tarixində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən qeydiyyata alınmışdır (VÖEN: 2002659431).

Təqdim edilmiş sənədlərə əsasən müəssisə Bakı şəhəri, Xətai rayonu, NZS qəsəbəsi ərazisində qapalı qeyri-yaşayış sahəsində fəaliyyət göstərir. Qeyd olunan sahə üzrə Allahverdiyev Camal Zahab oğlu ilə "BAKI TULLANTILARIN EMALI" MMC arasında 01 avqust 2025-ci il tarixli 1 nömrəli icarə müqaviləsi bağlanmışdır.

Müəssisənin fəaliyyət istiqamətlərinə ümumi məişət tullantılarının, təhlükəsiz sənaye tullantılarının, tikinti və söküntü tullantılarının, təkrar emal tipli tullantıların və təsərrüfat-məişət mənşəli çirkab suların daşınması daxildir. Eyni zamanda "BAKI TULLANTILARIN EMALI" MMC təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən 30 mart 2018-ci il tarixində verilmiş El-2/2018 nömrəli lisenziyaya malikdir.

Fəaliyyət tullantıların yalnız daşınması ilə məhdudlaşır, emal, utilizasiya və müvəqqəti saxlanma prosesləri həyata keçirilmir. Daşınan tullantılar təyinatı üzrə 01 may 2025-ci il tarixli 1011001011 nömrəli müqaviləyə əsasən "Təmiz Şəhər" ASC – yə təhvil verilir. Məişət-təsərrüfat mənşəli çirkab sular 05 yanvar 2017-ci il tarixli BSİ-01/17 nömrəli müqaviləyə əsasən Bakı Sukanal İdarəsinə təhvil verilir. Təhvil alınan təhlükəli tullantılar 13 mart 2026-cı il tarixli 26/25-26 nömrəli müqaviləyə əsasən daşınaraq "Tullantıları İdarəetmə Mərkəzi MMC-yə təhvil verilir.

Fəaliyyət əsasən Bakı şəhəri ərazisində yerləşən müəssisə və təşkilatlarla qarşılıqlı müqavilə əsasında həyata keçirilir. Müəssisənin balansında olan nəqliyyat vasitələrinin saxlanılması, texniki baxışı, yuyulması və dezinfeksiyası üçün ayrıca qaraj sahəsi mövcuddur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyi yuxarıda qeyd edilənləri nəzərə alaraq "BAKI TULLANTILARIN EMALI" MMC tərəfindən məişət, sənaye və maye tullantıların daşınması fəaliyyətinə dair təqdim olunmuş sənədləri aşağıdakı ekoloji tələblərə ciddi riayət edilməsi şərtilə razılaşdırır:

müəssisənin fəaliyyəti zamanı "Ətraf mühitin mühafizəsi haqqında" və "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanunlarının tələblərinə, eləcə də müvafiq texniki təhlükəsizlik qaydalarına ciddi riayət edilməsi;

-müəssisənin fəaliyyəti zamanı "Ətraf mühitin mühafizəsi haqqında" və "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanunlarının tələblərinə, eləcə də müvafiq texniki təhlükəsizlik qaydalarına ciddi riayət edilməsi;

-atmosfer havasının normadan artıq çirklənməsinin qarşısının alınması üçün texniki reqlamentə uyğun olaraq nəqliyyat vasitələrinin sazlığına daimi nəzarətin təmin edilməsi;

-"Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununun, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 13 nömrəli qərarı ilə təsdiq edilmiş "İstehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılması Qaydası"nın və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2003-cü il 01 iyul tarixli 419/ü nömrəli Əmri ilə təsdiq edilmiş "İstehsal prosesində və xidmət sahələrində əmələ gələn tullantıların inventarlaşdırılması qaydası və təsnifat (klassifikasiya) sistemi haqqında Təlimat"ın tələblərinə ciddi riayət edilməsi;

-müəssisənin fəaliyyəti üçün tələb olunan ekoloji və normativ sənədlərin hazırlanaraq razılaşdırılması və təsdiq olunması üçün Dövlət Ekoloji Ekspertiza Agentliyinə təqdim olunması;

-təhlükəli tullantıların daşınması üçün lisenziyanın tələblərinə əsasən nəqliyyat vasitələrinin təmin edilməsi;

-2-TG (hava və tullantı) statistik hesabatlarının tərtib olunması və razılaşdırılması üçün 11 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinə təqdim edilməsi;

-Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 mart tarixli, 122 nömrəli və 2022- ci il 17 avqust tarixli, 308 nömrəli Qərarlarının tələblərinə əsasən ətraf mühitin çirkləndirilməsinə görə ödənişlərin hesablanılaraq ödənilməsi.

**Qeyd:** İşlərin icrası müddətində rəydə müəyyən olunmuş tələblərin pozulması hallarına yol verildikdə qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görüləcəkdir.

İdarə Heyətinin sədri Mirsalam Qənbərov

Azərbaycan Respublikasının
Ekologiya və Təbii Sərvətlər
Nazirliyi
Dövlət Ekoloji Ekspertiza Agentliyi
Elektron sənədin surəti

**İmzalayan şəxs: Mirsalam Qənbərov Böyükağa/ Sədr**
Qeydiyyat №-si :**ER-22/1063** Qeydiyyat tarixi: **19.06.2026**

Qeyd: "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

Təhlükəsizlik kodu: 96D1B9